# Bu Novruzda Həqiqə müəllimin 70 yaşı tamam olur

Azərbaycan xalqının çox önəmli bayramlarından biri də Novruz bayramıdır. 1946-cı ildə məhz bu bayram günündə Naxçıvanda yaşayan Şahmərdanovlar ailəsində ikiqat bayram idi. Ailənin növbəti-beşinci qızı dünyaya gəlmişdi. Qızcığazın adını Həqiqə qoydular.

Əbəs yerə deməyiblər ki, insanın adı onun xasiyyəti, xarakteri barədə çox şey deyir. Doğrudan da Həqiqə xanım həqiq daşı kimi təmiz və şəffaf, həqiqəti sevən, reallığı düzgün dərk edən, xeyirxah, ədalətli, cəsarətli, kreativ düşüncəyə malik, zəhmətkeş, səxavətli, qayğıkeş, vətənpərvər və mehriban bir insandır.

Bu xüsusiyyətlər Həqiqə xanımın gözəl ailəsində formalaşmışdır. Bu xüsusiyyətləri Şahmərdanova bacılarının hər birisinə: Fatma (Fəridə) xanım, Səmənnaz (Tərifə) xanım, Zərifə (Arifə) xanım, Nəcibə xanım və Bəsti xanıma da şamil etmək olar. Altı bacının gayğıkeşliyi, mehribanlığı, tədbirkeşliyi onların övladlarına da sirayət edib. Ümumiyyətlə, bu nəslin nümayəndələrinin bir-birinə olan münasibəti hər bir azərbaycanlı ailəsi üçün örnək ola bilər.

Həyat sürprizlərlə, çətinliklərlə doludur. Bunlar Həqiqənin də həyatından yan keçməyib. O hələ üç yaşında ikən atasını itirib. Anası Xanımın altı qızı böyüdənədək nələr çəkdiyini bir o bilirdi, bir də Tanrısı.

Həqiqə ailədə yeganə uşaq idi ki, Səkinə nənəsinin arzusu ilə rus məktəbinə vermişdilər. Ailədə heç kəs rus dilini bilmirdi, yalnız Əkrəm dayısı onunla rus dilində danışırdı. Əvvəllər çox əziyyət çəkirdi, sonralar təhsil əlaçısı oldu, fəxri fərmanlarla təltif edildi, orta məktəbi əla qiymətlərlə bitirdi.

Arzusu həkim olmaq idi, lakin tale Həqiqəyə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini qismət etdi. Hələ universitetdə təhsil alan zaman o, ailə qurdu. Universiteti bitirəndə artıq iki övladı var idi: Seyfəli və Səbinə. Üçüncü övladı - Nərmin bir qədər sonra dünyaya gəldi. Həqiqə xanım öz övladlarına, ailəsinə çox bağlı bir insandır. Övladlarının savadlı, ləyaqətli, səmimi, zəhmətsevər, mərhəmətli bir insan olmaları üçün əlindən gələni əsirgəmədi. Doğrudan da onlar əsl vətəndaş kimi cəmiyyətə yararlı bir şəxsiyyət kimi formalaşıblar.

Pedaqoji fəaliyyətə Həqiqə xanım 1971-ci ildə başlayıb. Əvvəl Bakı şəhəri 32 və 17 nömrəli məktəblərdə kimya müəllimi işləyib, 1979-cu ildə Bakı şəhəri 264 nömrəli məktəbə direktor vəzifəsinə təyin edilib. Az bir zamanda bu məktəbin sədası çox uzaqlardan gəlib. Məktəbin nailiyyətləri: demokratik əsaslarla idarə olunması, müasir üslubda, zövqlə tərtibatı və ən əsası təlim-tərbiyənin yüksək səviyyədə təşkil ilə o, 1987-ci ildə Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində sərgilənib.

Məktəbin uğurları bununla bitmirdi. Həqiqə xanımın müəllifi olduğu ideyaya əsasən, burada bacarıqlı və istedadlı şagirdlər sinfi komplektləşdirilir, İKT-nin erkən tədrisi təşkil edilir, 9-11-ci siniflərdə şagirdlərin arzu və istəkləri nəzərə alınaraq tədris aparılırdı. İKT-nin erkən tədris edilməsi nəticəsində məktəbin 8-ci sinif şagirdi Neştun Denis Cənubi Afrika Respublikasında 64 ölkənin 10-11-ci sinif şagirdləri arasında keçirilən beynəlxalq informatika olimpiadasında bürünc medal qazanmışdı.

Məktəbin beynəlxalq əlaqələri çox geniş idi. Rusiya, Türkiyə, Fransa, İsrail, Ukrayna, Belarus, Gürcüstan kimi dövlətlərin pedaqoji ictimaiyyəti və təhsil ocaqları ilə əməkdaşlıq pedaqoji kollektivin təcrübə mübadiləsində, şagirdlərin dünyagörüşünün formalaşmasında, tədrisin keyfiyyətinin yüksəlməsində çox önəmli idi.

Azərbaycan alim-pedaqoqları ilə əməkdaşlıq şagirdlərin elmə, təhsilə marağının artmasına səbəb olurdu. Məsələn, pedaqoji elmlər doktoru, professor Əjdər Ağayev, kimya elmləri doktoru, akademik Mustafa Salahov, kimya elmləri doktoru, akademik Mark Aleksandroviç Dalin və digər alimlər şagirdlərin ən sevimli qonaqları idi. Birgə keçirilən elmi-praktik konfranslar, görüşlər öz bəhrəsini verirdi. Onlarla məzun məktəbi əla qiymətlərlə başa vurub qızıl və gümüş medallarla təltif edilmişdir. Məzunların sədası Azərbaycanın və xarici dövlətlərin ən prestijli ali məktəblərindən gəlirdi.

1989-cu ildə Kursk şəhərində keçirilən və kimya fənninin tədrisi problemlərinə həsr edilən Ümumittifaq konfransında Həqiqə xanımın tərtib etdiyi 8-11-ci siniflər üçün kimya fənnindən dərinləşmiş proqram müzakirə edilərək bəyənilmiş və Sovetlər məkanında fəaliyyət göstərən rusdilli məktəblərdə istifadə üçün tövsiyə edilmişdir.

Bu məqsədyönlü fəaliyyətin nəticəsi olaraq Azərbaycan Respublikası təhsil nazirinin 28.08.1991-ci il tarixli 630 saylı əmrinə əsasən 264 nömrəli məktəbə “Müəllif məktəbi” statusu verilmişdir. Bu ideyanın müəllifi Həqiqə Məmmədova idi.

2000-ci ıl fevralın 9-da Həqiqə xanım Xətai Rayon Təhsil Şöbəsinin müdiri vəzifəsinə təyin edildi, sonralar isə o, Binəqədi Rayon Təhsil Şöbəsinin müdiri vəzifəsinə keçirildi. Hər iki rayonda təhsilin keyfiyyətinin yüksəlməsi istiqamətində məqsədyönlü tədbirlər təşkil edib həyata keçirmişdir. Yaradıcı müəllimlərin və istedadlı şagirdlərin üzə çıxarılması istiqamətində orijinal, maraqlı tədbirlər reallaşdırmışdır. Şagirdlərdə Vətənə, milli bayramlarımıza, tariximizə, adət və ənənələrimizə, ədəbiyyatımıza məhəbbət və hörmət tərbiyə etmək bütün keçirilən tədbirlərin əsas məqsədi olmuşdur. Alim pedaqoqlar: Mustafa Salahov, Əjdər Ağayev, Vaqif Abbasov, Əbdül Əlizadə və digərləri ilə məktəb kollektivlərinin əməkdaşlığı tədrisin keyfiyyətinə müsbət təsir göstərirdi.

Az bir zamanda pedaqoji işçilərin və şagirdlərin Təhsil Nazirliyi tərəfindən keçirilən müsabiqələrdə, yarışlarda, layihələrdə və olimpiadalarda fəal iştirakı və əldə etdiyi nailiyyətlər: çoxsaylı diplomlar, sertifikatlar və fəxri fərmanlar aparılan məqsədyönlü işin nəticəsi idi.

Hər iki rayonda çox maraqlı məzun gecələri keçirilmiş, on minə yaxın insan: şagird, müəllim, ictimaiyyət nümayəndəsi bu tədbirlərdə iştirak etmişdir. Həqiqə Məmmədova bu rayonların məktəblərinin məzunlarını təbrik, orta təhsil haqqında attestatları təqdim edib böyük həyata yola salmışdır.

2002-ci ilin aprel ayında Məmmədova Bakı şəhəri 177 nömrəli məktəbə direktor vəzifəsinə təyin edildi. Bu məktəbdə də o, yeni ideyaları həyata keçirirdi. Tədrisin keyfiyyətini yüksəltmək, müasir metod və üsulları tətbiq etmək, tərbiyə prosesini düzgün təşkil etmək əsas prinsiplər kimi kollektivin qarşısında dururdu.

2004-cü ildən başlayaraq məktəbdə “İkimərhələli tədrisin təşkili” eksperimenti həyata keçirilirdi, yəni 9-11-ci siniflərdə tədris iki mərhələdə reallaşırdı. Birinci mərhələ hamı üçün icbari-baza təhsili sinif qruplarında, ikinci mərhələ isə şagirdlərin seçimi əsasında fənn qruplarında keçirilirdi.

Bu məktəbin də şagirdləri respublika fənn olimpiadalarında, müsabiqələrdə, yarışlarda fəal iştirak edir, çoxsaylı diplom, sertifikat və fəxri fərmanlarla təltif edilirdilər. Pedaqoji kollektiv və şagirdlər yerli və beynəlxalq layihələrdə, treninqlərdə iştirak edir, öz dünyagörüşlərini və səriştələrini artırırdı.

Bu məktəbin də beynəlxalq əlaqələri şagirdlərin formalaşmasında böyük rol oynayırdı. Az bir zamanda məktəbin yaxşı sorağı yalnız Azərbaycandan deyil, hətta xarici dövlətlərdən də gəldi. Demokratik idarəetmə, müəllim, şagird və valideyn özünüidarə orqanlarının fəaliyyəti istiqamətində məktəbin apardığı sistemli iş 2009-cu ilin aprel ayında Moskva şəhərində Məktəb Şuralarına Dəstək Beynəlxalq Assosiasiyasının keçirdiyi beynəlxalq konfransda müzakirə edilmiş, bəyənilmiş, məktəbin bu istiqamətdə qabaqcıl təcrübəsi broşür şəklində çap edilmiş və Assosiasiyaya kollektiv üzv olan məktəblərə istifadə üçün tövsiyə edilmişdir.

Məktəbin hərtərəfli inkişafının göstəricisidir ki, 2010-cu ildə 177 nömrəli tam orta məktəb Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə keçirilən “Ən yaxşı ümumtəhsil məktəbi” müsabiqəsinin qalibi olmuşdur.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin keçirdiyi müsabiqələrdə Həqiqə xanım kimya müəllimi, məktəb direktoru və təhsil şöbə müdiri kimi dəfələrlə fəal iştirak etmiş, qalib olmuş, diplomlarla və fəxri fərmanlarla təltif olunmuşdur.

Yaradıcı pedaqoji fəaliyyətinə və əldə etdiyi nailiyyətlərə görə Həqiqə Şahbaz qızı Məmmədovaya Azərbaycan Respublikası Prezidentinin 04.10.2010-cu il tarixli Sərəncamına əsasən “Əməkdar müəllim” fəxri adı verilmişdir.

Bu Novruz Həqiqə xanımın - müqtədir müəllimin 70 yaşı tamam olur. Bu şərəfli yubiley münasibəti ilə Azərbaycanın əməkdar müəllimi Həqiqə Şahbaz qızı Məmmədovanı təbrik edir, ona möhkəm cansağlığı arzulayırıq.

**Yusif ƏLİYEV,**
*“Azərbaycan müəllimi”*